Adımız məfkurəmizdir
№3 28 yanvar - 3 fevral 2025-ci il
Türküstan
www.turkustan.az



Dr. Şəmsəddin Kuzəçi

# Füzuli Kərkükludür

***Türk dünyasının tanınmış və şöhrəti sərhədləri aşan şairi 'Məhəmməd Süleyman Füzuli Əl-Bağdadi'hin doğumunun 530-cu ildönümündə qələmə alınan məqaləni belə adlandırmaq, şübhəsiz, bəzi tədqiqatçı, yazıçı və Füzulişünasların ağıllarında suallar yaradacaq, əzbərlərini pozacaqdır. Bu nüans ağlımdan keçmədi desəm, yalan olar. Çox düşündüm, götür-qoy etdim, qeydlərimə bir daha baxdım. Diqqətli, ciddi və obyektiv olmaq üçün çox çalışdım, səy göstərdim. Bunu etiraf etmək başlıca prinsiplərimdən biridir.***



Bir çox tədqiqatçı və elm adamı Füzulinin doğum yeri ilə bağlı müxtəlif fərziyyələr irəli sürürlər. Bəzi tədqiqatçılar şairin Azərbaycanda doğulduğunu, bəziləri isə qətiyyətlə İraqın Hillə və ya Bağdad şəhərində dünyaya gəldiyini deyirlər. 5 yaşından bəri Füzulinin şeirləri ilə böyüyüən, bütün divanlarını əzbər bilən, qəzəllərini sanki bir cəsədin yarılması kimi təhlil edən Kərkükün mili şairi Əta Tərzibaşı isə, tədqiqatlarından əldə etdiyi nəticəyə əsasən, Füzulinin Kərkükdə dünyaya gəldiyini bildirir.

İraq Türkman mətbuat orqanlarında Əta Tərzibaşı, Xıdır Lütfi, Rəşid Akif Hörmüzlü, Mehmed Sadiq, Əbdüllətif Bəndəroğlu, Mehmed Xurşid Dakuqlu, Əbdüləziz Səmin Bayatlı, Mehmed Mehdi Bayat, Çoban Xıdır Uluxan kimi Türkman yazıçılarının Füzuli haqqında məqalə və tədqiqatlarını oxumaq mümkündür. Belə məqalələrin çoxunda Füzulinin İraq torpaqlarında dünyaya gəldiyi, 5-6 yaşına qədər atası ilə Kərkük Qalasında yaşadığı, evinə 15 metr məsafədə adını daşıyan bir məscidin olduğu və şeirlərində istifadə etdiyi bəzi sözlərin Kərkük dialektinə məxsus olduğu vurğulanır.

## Əta Tərzibaşının Füzulinin Doğum Yeri Haqqında Qeydləri

Əta Tərzibaşının kiçik yaşlarından etibarən Füzuli pərəstişkarı olduğu şübhəsizdir. İlk dəfə məhəllə mədrəsəsində təhsil alarkən onun qəzəlləri ilə tanış olmuş, ətraflı təhlil nəticəsində Füzulinin Kərkükdə dünyaya gəldiyi faktını elm aləminə təqdim etmişdir. Əta Tərzibaşının Füzuli haqqında qələmə aldığı 18 məqaləsi Necad Kövsər tərəfindən bir kitabda toplanıb. Bu məqalələr "Füzulinin doğum yeri", "Füzulinin ərəb dilində qəsidələri-1", "Füzulinin ərəb dilində qəsidələri-2", "Füzulinin Mətlə ül-Etiqadı", "Füzulidə qapalı mənalar-1", "Füzulidə qapalı mənalar-2", "Füzulidə qapalı mənalar-3", "Füzulinin nəşr olunmayan bir Lüğəzi", "Füzulinin doğum yeri haqqında yeni məlumatlar", "Füzulinin nəşr olunmayan bir Müləmməsi-1", "Füzulinin "İcmali Eşq"i və Kərkükdə edilən tərcüməsi", "Füzulinin bir qəzəliylə bağlı həsb-hal", "Ay tutulması hadisəsi və Füzulinin bir beyti", "Füzulinin iki qəzəlinin Tərlan tərəfindən şərhində səhvlər", "Füzuli ilə Qanuninin mühəvvərəsi", "Füzulinin mənqəbəvi həyatından bir nəbzə", "Ədəbiyyatımızda müvəşşəh şeir", "Füzulinin doğum tarixini əks etdirən bir mənzumə" adlanır.

## Necad Kövsərin Fikirləri

Füzuli Türk dünyası şairləri arasında haqqında ən çox danışılan və fikir bildirilən şairlərdən biridir. Türk dünyasının görkəmli divan şairləri haqqında tədqiqatlar və qələmə alınan kitablar bu qədər az olduğu halda, Füzuli ilə bağlı sayı gündən-günə artan cildlərlə kitab, məqalə və əsər işıq üzü görmüşdür. Türkiyə, Azərbaycan, İran və İraqda yaşayan türklər onu öz şairləri kimi qəbul edir, haqqında tədqiqat aparıb kitablar qələmə alırlar. Füzulinin şəxsiyyəti, doğum yeri və tarixi onunla bağlı ən çox sual doğuran və sirr pərdəsi arxasında qalan mövzulardandır.



## Xıdır Lütfinin Füzuli Haqqında Tədqiqatları

***Hər kəsin hörmətini qazanmış müstəsna və böyük şair Məhəmməd Füzuli Kərkükludür. Kərkükdə doğulub boya-başa çatıb və təhsil alıb. Sonra ailəsi ilə birlikdə Bağdada, Hillə ətrafına köç edib. Kərbəlada vəfat edib.***

***Kitablarda belə bir məlumat olmasa da, əcdadlarımızdan gələn söz-söhbətlərə, Divanda işlənən və sırf Kərkük dialektinə məxsus sözlərə, əsasən, bir Kərkuklü olaraq deyə bilərik ki, Füzuli Kərkükludür. İraq Türklərinin milli fəlsəfəsinin təmsilcisi Kərkuklü şair Xıdır Lütfi əfəndinin Füzuli ilə bağlı qələmə aldığı kitabında onun eşq anlayışı, məzhəbi, təsəvvüflə əlaqəsi, dili, doğum yeri, doğum tarixi, iqtidarla münasibəti və əsərləri ilə bağlı bir çox məlumat yer alırdı. Təəssüf ki, nəşr edilmək üçün İraq Mədəniyyət nazirliyinə təqdim edilən kitab orada itib-batmışdır.***



Xıdır Lütfi qələmə aldığı əsər 11 hissədən ibarətdir. Hər bir hissədə aşağıdakı mövzulardan bəhs edilir:

Birinci hissə: Füzulinin atası, ailəsi, oğlu Fəzli, milliyyəti, dünyaya gəlişi, gəncliyi, təxəllüsü və atasıyla Kərkükdən köçməyi.

İkinci hissə: Füzulinin Sultan Süleyman Qanuni ilə görüşü, Bağdad fəthi, Kərbəlada Həzrət Hüseyn, Mədinədə Rəvzə-i Mütəhhərənin inşası və təmiri.

Üçüncü hissə: Füzulinin Kərkükdə Zindan küçəsindəki evi və təhsil aldığı məscid.

Dördüncü hissə: Füzulinin dünyaya gəlişi və vəfatı haqqında "Türk Dili" jurnalı və "Türk Yurdu" məcmuələrində yayımlanan məqalələrin şərhi.

Beşinci hissə: Füzuli kimdir və haralıdır.

Altıncı hissə: Füzulinin Sultan Süleyman Qanuni ilə görüşü, məvacib məsələsi və söylədiyi şeirlərdən nümunələr.

Yeddinci hissə: Füzuli Bağdadlıdır yoxsa Kərkuklü?

Səkkizinci hissə: Füzulinin məzhəbi nədir?

Doqquzuncu hissə: Füzulinn bir neçə əsərinin tərcümə və təhlili

Onuncu hissə: Füzuli haqqında fikir söyləyənlər.

On birinci hissə: Füzulinin həyat hekayəsi.

**Füzuli Türk dünyası şairləri arasında haqqında ən çox danışılan və fikir bildirilən şairlərdən biridir. Türk dünyasının görkəmli divan şairləri haqqında tədqiqatlar və qələmə alınan kitablar bu qədər az olduğu halda, Füzuli ilə bağlı sayı gündən-günə artan cildlərlə kitab, məqalə və əsər işıq üzü görmüşdür. Türkiyə, Azərbaycan, İran və İraqda yaşayan türklər onu öz şairləri kimi qəbul edir, haqqında tədqiqat aparıb kitablar qələmə alırlar. Füzulinin şəxsiyyəti, doğum yeri və tarixi onunla bağlı ən çox sual doğuran və sirr pərdəsi arxasında qalan mövzulardandır...**

## Rəşid Akif Hörmüzlünün Füzuli ilə bağlı Tədqiqatları

***Görkəmli şair Hörmüzlü Rəşid Akif bəy Xıdır Lütfinin Füzuli haqqında yazdığı əsərlə bağlı belə demişdir:"Dörd əsr yarımdan çoxdur taxt və tacını heç bir şairə verməyən şeirlər kralı Füzuli kimdir, haralıdır, nə çənci ildə dünyaya gəlmişdir? Hər kəsi maraqlandıran bu suallə bağlı açıq şəkildə deyə bilərəm ki, doğru cavab verən yoxdur. Çünki, şair heç bir əsərində bu mövzulardan bəhs etməmişdir. Biz Kərkuklülərə görə isə, hər kəsin sevgisini və hörmətini qazanan bu müstəsna şair bir Kərkukludür. Kərkükdə dünyaya gəlmiş, burada təhsil almış, daha sonra ailəsi ilə Bağdada, Hillə yaxınlığına köçmüş və Kərbəlada vəfat edərək Hz.Hüseynin məqbərəsinin yanında dəfn edilmişdir...***

(ardı gələn sayımızda)

Oxu, oxut, abunə ol!